

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 dekabr 2025-ci il №89 (2998) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Slovakiya Respublikasına rəsmi səfər edib.*

Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Prezident Sarayında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının



Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidentinə raport verib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycanın nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiyanın nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edilib.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Prezident İlham Əliyev xatirə kitabını imzalayıb.

* * *

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.

* * *

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Slovakiya Prezidenti **Peter Pelleqrini** deyib:

- Hörmətli cənab Prezident və Azərbaycanın nümayəndə heyəti.

Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir. Hətta 20 il əvvəl Slovakiyaya səfər etməyinizə baxmayaraq, o, rəsmi səfər deyildi. Ola bilsin, o, konfrans və ya digər tədbir ilə bağlı idi. Mən çox minnətdaram ki, Siz hökumət üzvlərindən ibarət bu cür geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. Çünki fikrimizcə, bu səfər güclü siqnal verməlidir: əlaqələrimiz sadəcə dostluq əlaqələri deyil, onların hələ də böyük inkişaf potensialı var. Biz çox sahələri nəzərdən keçirəcəyik. Təkbətək görüşdə çox səmimi müzakirəyə görə minnətdaram və bunu həqiqətən yüksək dəyərləndirirəm. Ümidvaram ki, ikitərəfli nahar və Bratislava Qəsrində dövlət ziyafəti zamanı bizim gündəliyə baxmaq üçün xeyli imkanımız olacaq.

**(Ardı 2-ci səhifədə)**




## **ANAMA:** Ötən həftə 1511 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən dekabrın 1-dən 7-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 273, tank əleyhinə 366 mina və 1511 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1693,4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Zabit təkmilləşdirmə kursunun növbəti buraxılış mərasimi keçirilib

Cari ilin hazırlıq planına əsasən, dekabrın 9-da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit təkmilləşdirmə kursunun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən mərkəz rəisi polkovnik Nizami Mövlanov tədbir iştirakçılarını salamlayaraq, ordu quruculuğu sahəsində təcrübəli kadr potensialının artırılmasının təşkilinə qoyulan vacib tapşırıqlardan biri olduğunu qeyd edib, kursu müvəffəqiyyətlə bitirən hərbçilərə bundan sonrakı xidmət dövründə uğurlar arzulayıb.

Dinləyicilər kurs müddətində onlara göstərilən yüksək diqqət və qayğıya görə dərin minnətdarlıqlarını qeyd ediblər.

Sonra zabit təkmilləşdirmə kursunu müvəffəqiyyətlə bitirən, təlim və tədrisdə yüksək nəticələr əldə edən dinləyicilərə fəxri fərman və sertifikatlar təqdim olunub, kurs birincisi mayor Pərviz Quliyev tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.



## Hərbi xidmət sıra hazırlığından başlanır

Sıra hazırlığı əsgərlərin vahid, nizamlı bir qüvvə kimi fəaliyyət göstərməsini təmin edən qədim bir tətbiqdir. Onun əsas məqsədi intizamı aşılamaq, komandirlərin əmrlərinin dəqiq və dərhal yerinə yetirilməsini təmin etməkdir. Tarix boyu sıra hazırlığı orduların strukturuna və ehtiyaclarına uyğun olaraq inkişaf etmişdir.

Qədim Roma legionları, Qədim Yunan Falanqaları və ya qədim Çin orduları kimi nizami hərbi birləşmələr kütləvi hərəkətləri və döyüş manevrlərini koordinasiya etmək üçün müəyyən edilmiş qaydalara əməl edirdilər. Bu qaydalar bugünkü sıra hazırlığının ilk nümunələri idi. Odlu silahların yaranması və inkişafı sıra hazırlığının əhəmiyyətini daha da artırdı. XVII-XIX əsrlərdə Avropa orduları (xüsusilə Prussiya ordusu) döyüş meydanında cərgələrdə sürətli və nizamlı hərəkət etmək, silahları eyni vaxtda doldurub atəş açmaq üçün dəqiq təlimlərə ehtiyac duyurdular. Bu dövrdə sıra hazırlığı hərbi təlimin əsasını təşkil edirdi.

XX əsrdə hərbi texnikanın (tanklar, təyyarələr) və səngər müharibəsi taktikalarının yaranması ilə cəbhə xəttindəki sıx cərgələrin əhəmiyyəti azalsa da, sıra hazırlığı tamamilə aradan qalxmadı. O, hərbi intizamın formalaşmasında, əsgərlərin fiziki və psixoloji cəhətdən hazırlamaqda, komanda hissini gücləndirməkdə əsas vasitə olaraq qaldı. Azərbaycanın hərb tarixində, qədim dövlətlərdən başlayaraq müasir müstəqil orduya qədər, hər zaman intizam və hərbi qaydalara əməl olunmuşdur. Müasir Azərbaycan Respublikasının Silahlı Qüvvələrində sıra hazırlığı hərbi nizamnamələrlə tənzimlənir və döyüş hazırlığının, eləcə də rəsmi mərasimlərin ayrılmaz bir hissəsidir.



Sıra hazırlığı hər bir ordunun, o cümlədən Azərbaycan Ordusunun hərbi intizamının və döyüş hazırlığının ən vacib tərkib hissələrindən biridir. Bu, sadəcə fiziki bir məşğələ deyil, hərbi qulluqçularda yüksək intizam, birlik, çeviklik və koordinasiya vərdişlərini formalaşdıran fundamental təlimdir.

**(Ardı 6-cı səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

(Əvvəli 1-ci səhifədə)



Bir daha qeyd edim ki, Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, Baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik. Belə fikrə gəldik ki, Bakıda səfirliyimizi açsaq əla olar. Hökumət olaraq, biz həmin qərarı qəbul etdik. Siz də eyni qərar qəbul etdiniz. Çox şadam ki, hazırda masa arxasında səfirlər də əyləşib - biri Bratislavada, digəri Bakıdan. Düşünürəm ki, bu addım çox faydalı oldu. Biz, həmçinin ölkələrimiz arasında Komissiyanı yaratmaq qərarına gəldik. Sonuncu iclas 2024-cü ildə keçirilib. Növbəti iclas 2026-cı ildə nəzərdə tutulur. Bir sözlə, işlər gedir.

Əlbəttə, mən hökumət üzvlərinin çoxsaylı səfərlərini də qeyd etməliyəm. Təkcə Prezident və Baş nazirlərin səfərləri deyil, digər səfərlər də olub. Çox məmnunam ki, müdafiə naziri mənə səfərinin uğurla keçdiyini bildirdi. O, həmçinin parada dəvət olundu. Mühüm milli gün qeyd edildi. O, mənə söylədi ki, onun sahəsi ilə bağlı əla görüşləri baş tutdu, çünki onun özü çox fəal nazir-



dir. Potensial böyükdür.

İqtisadiyyat naziri də buradadır. Bu, bizim üçün indiki anda çox vacib mövzudur, çünki enerji təchizatına gəldikdə, Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır. Şirkətlərimizin rəhbərləri də buradadır. Çox şadam ki, Siz SOCAR-ın prezidentini də nümayəndə heyətinə daxil etmisiniz. Çox konkret söhbət apara bilərik. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz bu, nəyin bahasına başa gəlir. Bir daha, cənab Prezident, xoş gəlmisiniz. Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir.

* * *

Sonra Azərbaycan Prezidenti **İlham Əliyev** çıxış edərək deyib:

- Təşəkkür edirəm. Xoş sözlərə görə çox sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Çox şadam ki, biz Bratislavada görüşürük. İlk öncə Bakıdakı görüşümüz xatirimdədir. COP29 konfransında iştirak etdiyinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm. Sizinlə xeyli söhbət etmək imkanımız oldu. Siz Baş nazir kimi səfərinizi və səfirliyin açılmasını xatırlatdınız. Əslində, biz ikimiz Slovakiya ilə Azərbaycan arasında münasibətlərin fəal fazasını başlatdıq. Əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz Baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik. Son illər ərzində münasibətlərimiz yüksək dərəcədə inkişaf edib və bir çox sahələri əhatə edir.

Siz energetikanı qeyd etdiniz. Ötən il biz Slovakiyaya qaz təchizatına başladıq. İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq. Müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığımızın gələcəkdə böyük potensialı var. Artıq vacib işlər görülüb, amma daha çox işlər də görülməlidir. Qarabağın yenidən qurulmasında fəal iştirak edən slovak şirkətlərinə dəstəyinə görə minnətdarıq.

* * *

Slovakiya Prezidenti dövlətimizin başçısını Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş tarixi nailiyyət münasibətilə təbrik edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib.

Söhbət zamanı dost ölkə kimi Slovakiya şirkətlərinin işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olunub, Azərbaycanla Slovakiya arasında enerji, nəqliyyat, müdafiə sənayesi sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Slovakiyanın ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi qeyd edilib.

Dövlətimizin başçısı Slovakiya Prezidentini Azərbaycana rəsmi səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

* * *

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Slovakiya Prezidenti bəyanatla çıxış edib.

**Prezident Peter Pelleqrininin bəyanatı**

- Xanımlar və cənablar, mən çox şadam ki, bu gün Slovakiyada, Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, mən şadam ki, Siz mənim dəvətimi qəbul etmisiniz. Bu, Azərbaycan Prezidentinin Slovakiyaya tarixdə ilk rəsmi səfəridir. Bu, bizim qarşılıqlı marağımızı ən yüksək səviyyədə təsdiq edir. Biz strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindəyik. Biz cənab Prezidentlə geniş tərkibdə və təkbətək formatda geniş müzakirələr apardıq. Biz keçmişdə dəfələrlə görüşmüşük. Hər zaman olduğu kimi, görüşümüz səmimi və açıq şəkildə həyata keçirilmişdir. Çünki bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub.

Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var.

Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və bu da bizim münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmışdır. Bizim qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik - müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə.

Mən slovak xalqı adından cənab Prezidenti və Azərbaycan Respublikasını təbrik etmək istərdim. Çünki uzun illər-



dən sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi paraflanmışdır. Bilirsiniz ki, bu müqavilə Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə imzalanmışdır. Azərbaycan bu gün sülh şəraitində yaşayır və onun vətəndaşları - cəmiyyət diqqəti ölkənin inkişaf etdirilməsinə yönəldib. Artıq diqqət postmüharibə dövrünə yönəldilib.

Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək.

Müdafiə sənayesi çox vacib sahədir. Biz bu sahəni artıq inkişaf etdiririk. Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik.

Mən şadam ki, bizim Baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın səfəri zamanı da Azərbaycan tərəfi avtomatik artilleriya sistemlərinin alışı ilə maraqlanıb və artıq niyyətini bildirib. Əminəm ki, bu silah növləri də Azərbaycan Silahlı Qüvvələrini gücləndirəcəkdir.

Birgə müəssisələr, birgə şirkətlər, texnologiya ötürülməsi, yeni, biz bu sahədə daha da sıx çalışmaq əzmindəyik və əlbəttə ki, digər sahələr də ola bilər. Bildiyiniz kimi, slovak şirkəti Qarabağ bölgəsində "ağıllı kənd" inşa edir. Eyni zamanda, bizim ixrac-idxal bankımız da müxtəlif layihələri maliyyələşdirməyə hazırdır.

Sonda onu da qeyd etmək istərdim ki, Azərbaycan və Slovakiya dost ölkələrdir. Bizim aramızda daha sıx əlaqələr ola bilər. Şadam ki, Macarıstanın "Wizz Air" şirkəti fəal şəkildə bizim ölkələri birləşdirir, uçuşları artırır. Artıq Bratislava Hava Limanından da Bakıya birbaşa uçuşlar açıla bilər. Çünki bu, dinamik inkişaf edən iki regiondur və bu da bizim müzakirə mövzumuz olmuşdur.

Cənab Prezident, bir daha Sizi Bratislavada salamlayıram. Əminəm ki, Sizin rəsmi səfəriniz bizim əməkdaşlığımızda yeni, mühüm bir mərhələnin başlanğıcı olacaq. Mən çox şadam ki, biz tezliklə Sizinlə yenidən görüşəcəyik. Mənim dəvətimi qəbul etdiyinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə ki, biz Bakıda görüşmüşük, ancaq rəsmi olaraq Slovakiya Prezidenti Azərbaycanda səfərdə olmamışdır.

Bir daha cənab Prezident, xoş gəlmisiniz Slovakiyaya.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri



(Əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Prezident.
Əziz dostlar.

İlk növbədə, cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mənim Slovakiyaya rəsmi səfərim əminəm ki, iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bu, Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səferidir. Əlbəttə ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır.

Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük.

Siz artıq bizim ikitərəfli gündəliyimizlə bağlı geniş məlumat verdiniz. Sadəcə olaraq, əlavə etmək istərdim ki, qeyd etdiyiniz bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər.

Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır.

Hazırda bizim ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir. Bu gün Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini təmin etmiş olur.

Bizim digər perspektivli əməkdaşlıq sahəsi haqqında Siz artıq dediniz, bu da müdafiə sənayesi sahəsidir. Biz bu sahədə əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görürük. Biz müharibə aparmaq fikrində deyilik. Yəni, bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq.

Düz bir ay əvvəl - noyabrın 8-də biz azadlıq müharibəsində Qələbənin beşinci ildönümünü qeyd etmişdik və fəxri qonaqlar arasında Slovakiyanın Baş nazirinin müavini və müdafiə nazirini görmək xüsusi məmnunluq yaratmışdır. Buna görə biz Slovakiya dövlətinə və hökumətinə minnətdarıq. Bu kimi jestlər bir daha onu göstərir ki, biz, sözün əsl mənasında, dost ölkələrik. Müvafiq hökumət nümayəndələri bütün istiqamətlər üzrə təmaslarını alıb ki, gələcək illərdə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıraq.

Sizin rəhbərliyinizlə Slovakiyanın uğurlu inkişafı bizi çox məmnun edir. Ölkənizdə sabitlik, iqtisadi inkişaf hökm sürür. Slovakiya çox güclü sənaye potensialına malikdir. Xüsusilə Sizə rəğbət qazandıran odur ki, Slovakiya müstəqil xarici siyasət aparır. Bəzi hallarda buna görə müəyyən çətinliklərlə də üzləşirsiniz. Ancaq bu, Sizi yolunuzdan döndərmir və bizim bölgəmizdə Sizin ölkənizə və rəhbərliyə çox böyük hörmət mövcuddur.

Azərbaycan isə öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib. Biz, eyni zamanda, bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta Dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir.

Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır.

Eyni zamanda, bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik.

Cənab Prezident, qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Siz Azərbaycanda dəfələrlə olmusunuz, ancaq Prezident kimi rəsmi səfərdə hələ ki, olmamısınız. Əgər vaxtınız olarsa, gələn il biz Sizi Azərbaycanda qarşılamağa hazırıq və çox məmnun olarıq. Bir daha çox sağ olun.





* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada "Azadlıq Qapısı" abidəsini ziyarət ediblər.

Əvvəlcə Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirilib.

Prezident İlham Əliyev və Prezident Peter Pelleqrini abidənin önünə əklil qoyublar.

Qeyd edək ki, bu abidə 1948-1989-cu illərdə keçmiş Çexoslovakiyadan qaçmağa çalışan zaman həlak olanların xatirəsinə həsr edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada Devin qəsrində olublar.

Dövlətimizin başçısına Morava və Dunay çaylarının qovuşduğu məkanda yerləşən qədim qəsr barədə məlumat verilib.

Bildirilib ki, Slovakiyanın rəmzlərindən biri olan Devin qəsri bu ölkənin milli mədəniyyət abidələri siyahısına daxildir. Yazılı mənbələrdə Devin adına ilk dəfə 864-cü ilə təsadüf edən salnamələrdə rast gəlinir. Qəsr 822-907-ci illərdə mövcud olmuş Böyük Moraviyanın tarixində mühüm rol oynayıb. XIII əsrdə Devin macarların kral və sərhəd qalası olub. 1809-cu ildə Napoleonun ordusu qalanı minalayaraq partladıb. 1896-cı ildə qalanın dağılmasının rəmzi olaraq burada abidə ucaldılıb. Birinci Dünya müharibəsindən sonra qala qalıqlarının üzərində olan dağ massivində ilk mağaralar aşkarlanıb. Ərazidə ümumilikdə fasilələrlə bir əsrdən artıqdır ki, arxeoloji araşdırmalar aparılıb. Minilliklər boyunca Devin qalası qədim insanların məskəni, eyni zamanda, tacirlər və döyüşçülər üçün toplanış yeri olub.

* * *

Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından rəsmi ziyafət verilib.

Dövlət başçıları ziyafətdə çıxış ediblər.

**Prezident Peter Pelleqrininin çıxışı**

- Cənab Prezident, əziz İlham.

Hökumət nümayəndələri, xanımlar və cənablar, əziz dostlar.

Cənab Prezident, bu gün Sizi mötəbər nümayəndə heyətinizlə birlikdə Bratislava qəsrində salamlamaq mənim üçün böyük şərəfdir.

Mənim Sizin ölkənizə bir neçə dəfə səfər etmək imkanım olub. Həmişə doğma ölkəmizə ölkəniz haqqında güclü təəssüratlarla qayıtmışam. Ölkəniz minilliklər boyu özündə müdriklik, cəsarət və gözəlliyi əks etdirib. O, alov rəmzini təcəssüm etdirir. Bu, təkcə Abşeronun əbədi yanan alovu deyil. Bu, mehribanlıq, qətiyyət, mətanət və fəxarət alovudur. Sizin zəngin tarixiniz musiqidə yazılıb, lakin onu həm də Qobustan qayalarında görmək olar. Ötən il bu möhtəşəm yeri ziyarət etmək mənə nəsib oldu. Siz, cənab Prezident, ölkənizin gələcəyini ambisiya, innovasiya və inamla qurursunuz. Bratislavaya geri dönərkən mən də sizə yaxın olduğumuzu hiss etdim.

Coğrafi məsafənin bizi ayırdığına baxmayaraq, ilk baxışdan iki ölkə bir-birinə göründüyündən daha yaxındır. Əsrlər boyu Avropa sivilizasiyaların qovuşuğunda yerləşmiş və bir-birindən uzaqda olan ölkələri tarixi ticarət yolları ilə birləşdirmişdir. Xalqınız digər millətlərə hörmət bəsləmək və dialoq qurmaq xüsusiyyəti ilə seçilir.

Slovakiya hazırda BMT və NATO-da dərin köklər salaraq tarixən güclər arasında toqquşmaların, rəqabətin şahidi olmuşdur və indi Avropanı Şərqlə birləşdirən regionda bir hab rolunu oynayır. Bütün hallarda biz dialoqun, diplomatiyanın, sülhün və beynəlxalq hüquqa hörmətin tərəfdarıyıq. Biz səmimi, açıqqəlbli, qonaqpərvər və ənənələri sevən bir xalqıq. Biz dostluğa, mehribanlığa və digər humanist keyfiyyətlərə hörmət göstərməyə sadiqik.

Ola bilsin məhz buna görə və həm də şəxsi təmaslarımız vasitəsilə illər boyunca qurduğumuz Slovakiya-Azərbaycan tərəfdaşlığı təbii bir tərəfdaşlıq kimi görünür və istənilən ab-havada daimi xarakter daşıyır. Biz həmişə sizin ərazi bütövlüyünüzə və münaqişənin davamlı, sülh yolu ilə həllinə dəstək göstərmişik. Avqustda imzalanmış razılaşma "sülhə nail olmaq mümkündür" kimi güclü mesaj verən böyük nailiyyətdir. Bu da dünyanın digər yerlərində bizlər üçün bir ilham mənbəyi olmalıdır. Enerji təchizatımız təhlükə altında olduqda biz Sizə müraciət edə bilərik.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

(Əvvəli 3-cü səhifədə)

Ötən il Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıqda biz münasibətlərimizə yeni enerji ilə təkan verdik. Sizin Bratislavaya ilk rəsmi səfəriniz bu münasibətlərin gücünü əks etdirir. Bu gün apardığımız müzakirələrin nəticələri onu göstərir ki, biz münasibətlərə diqqət yetirsək və onları daha da inkişaf etdirsək bunun bəhrəsini görərik. Biz bunu xüsusilə enerji, iqtisadiyyat və müdafiə sektorlarında görürük. Mübaliğəsiz deyə bilərəm ki, biz münasibətlərimizin yeni fəslinə qədəm qoyuruq. Biz bu sektorlarda əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar görürük və onlardan kənarda üzümüzə yeni fürsətlər açılır.

Ümidvaram ki, yeni imkanlar və əlaqələr, yeni iqtisadi imkanlar kəşf edə və turizm, mədəniyyət, yaxud idman sahəsində əməkdaşlıq vasitəsilə xalqlarımız arasında əlaqələr yarada bilərik.

Cənab Prezident, xanımlar və cənablar, biz etimad üzərində güclü, qarşılıqlı tərəfdaşlıq qurmuşuq.

Sağ olun.





### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Prezident, əziz qonaqlar.

İlk növbədə, cənab Prezident, Slovakiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Qonaqpərvərliyinizə və dostluğunuza görə minnətdaram. Biz uzun müddətdir ki, bir-birimizi tanıyırıq, dəfələrlə görüşmüşük. Lakin bu, xüsusi statusa malik rəsmi səfərdir. Səfər böyük hörmətə və rəğbətə layiq, həqiqi dost olan ölkəyə həyata keçirilir. Ölkələrimiz kifayət qədər bir-birindən uzaqda yerləşsə də, Siz xalqlarımız arasında oxşarlığı qeyd etdiniz. Bu fikirlərinizə tam şərik çıxıram.

Aramızda çox oxşarlıqlar mövcuddur. Əsrlər boyu böyük imperiyaların tərkibində olmuşuq. Biz sosialist blokun dövlətləri hesab edilən ölkələrdə yaşamışıq. Müstəqil deyildik. Müstəqilliyimizin çox məhdud hüdudları olub. Demək olar ki, eyni vaxtda - 1990-cı illərin əvvəllərində əsl müstəqil ölkələr olduq. O vaxt müstəqilliyi və bütün təsisatları, həmçinin gələcəyimizi sıfırdan qurmalı idik. İndi isə 30 ildən bir qədər artıq müddətdə Slovakiyanın əldə etdiyi tərəqqiyə nəzər salsaq görərik ki, həmin irəliləyiş xalqınızın güclü iradəsi, tarixiniz, mədəniyyətiniz və milli mənsubiyyətiniz sayəsində əldə olunub. Bu gün böyük təəssürat bağışlayan qədim Qəsrdə birgə olduğumuz zaman mən bir daha enerjili, müqavimətli və müstəqil siyasət yürütməkdə bacarıqlı olmağınızın mənbəyini gördüm.

Əsrlər boyu milli mənsubiyyətinizi qoruyub saxlaya bilmisiniz, baxmayaraq ki, bu, asan deyildi. Çox millətlər tarix boyu assimilyasiyaya uğrayıb. Bir çox millətlər dövləti qurmaq, dövlətçiliyi qoruyub saxlamaq bacarığını əldən buraxdılar. Lakin Siz bu vəzifənin öhdəsindən gəldiniz. Bu gün Slovakiya adambaşına düşən ümumi daxili məhsula, sənayenin inkişafına, insan kapitalına və yaşayış standartlarına görə aparıcı ölkələrdən biridir. Ölkəniz uğur qazanmaq, öz milli mənsubiyyətini, ləyaqətini qoruyub saxlamaq və dostluq qurmaq istəyən ölkələr üçün örnək ola bilər. Biz Azərbaycanda Slovakiyanı olduqca sülhsevər, dostluğu və imkanları yaradan, dostluğu dəyərləndirən ölkə kimi görürük. Bütün bunlar aramızdakı münasibəti əks etdirir.

Cənab Prezident, biz bu gün təsisat inkişafı səviyyəsinə yüksəlmiş əməkdaşlığın, faktiki olaraq, çərçivəsini Sizinlə birgə yaratdıq.

Siz ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni qeyd etdiniz. Həqiqətən biz münasibətləri mümkün qədər ən yüksək səviyyəyə qaldırdıq. Bu gün görüşlər və müzakirələr zamanı, eləcə də tarixi yerləri ziyarət edərkən biz uğur qazanmaq, öz daha nailiyyətləri bir daha gördük. Çox böyük potensialın şahidi olduq. Əldə olunmuş bu cür əməkdaşlıq daha güclü körpüləri salmaq imkanını yaradacaq, nəinki ikitərəfli gündəlik əsasında işləmək və işi davam etdirmək, o cümlədən qonşular üçün imkanları yaradacaq. Aramızda çox dayanıqlı bağlantılar qurulacaq. Energetika infrastrukturu artıq bizi bir-birimizə bağlayır.

Biz tərəfdaşlığımızın müxtəlif sahələrində fəal çalışırıq və əminəm ki, rəsmi səfərim işbirliyimizə əlavə təkan verəcək. Biz Slovakiyada dostları, mehribanlığı, hörməti görürük və Sizin xalqınıza, hökumətinizə, Slovakiya dövlətinə eyni hisslər bəsləyirik. Mən, cənab Prezident, tərəfdaşlığımıza verdiyiniz bütün töhfələrinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən Sizi Prezident kimi rəsmi səfərə dəvət etmək istərdim. Siz həm Baş nazir, həm Parlament spikeri kimi bizə səfər etmisiniz, lakin Prezidentin rəsmi səfərinin, əlbəttə ki, xüsusi statusu var. Ümid edirəm, Sizi gələn il Azərbaycanda görəcəyəm.

Mən, həmçinin Qarabağın yenidən qurulmasına verdiyiniz dəstəyə görə Sizə və Slovakiyadakı dostlarımıza minnətdaram. Hazırda tikilən "Ağıllı kənd" Slovakiyanın azad olunmuş ərazilərdə əldə etdiyi uğurun rəmzinə çevriləcək. 851 ev və 10 yaşayış binasından, eləcə də məktəb, uşaq bağçası və tibbi mərkəzdən ibarət kənd nailiyyətlərinizin və əbədi dostluğumuzun təzahürü olacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası bu gün Azərbaycanın bir nömrəli hədəfidir. Slovakiya nəinki bu işlərdə, o cümlədən minalardan təmizləmədə bizə yardım edir.



Slovakiyadan aldığımız xüsusi avadanlıq insan həyatını xilas etməyə, sağlamlığı qorumağa imkan yaradır. Əfsuslar ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi bitdikdən sonra 400-dən artıq insan minalara görə öz həyatını itirib, yaxud ciddi yaralanıb. Sizdən aldığımız avadanlıq həqiqətən insan həyatını qoruyur.

Qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

* * *

Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını qarşılayıb.

Azərbaycan Prezidenti xatirə kitabını imzalayıb.

Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək görüşü olub.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması və tarixi normallaşdırma sənədi ilə əlaqədar təbrik edib.

İki ölkənin parlamentləri arasında mövcud əlaqələrdən məmnunluğunu bildirən Rixard Raşi Azərbaycana, Qarabağa səfərini xatırlayıb, işğaldan azad edilmiş Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında Slovakiya şirkətlərinin iştirakını ölkələrimiz arasında dostluğun nümunəsi kimi qiymətləndirib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib.



Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında keçən il strateji tərəfdaşlıq sənədinin imzalandığını və əlaqələrimizin bu zəmində inkişafını vurğulayıb.

Görüşdə Azərbaycanla Slovakiya arasında parlament diplomatiyasının əhəmiyyətinə toxunuldu, beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin parlament təsisatları xətti ilə əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Söhbət zamanı enerji, müdafiə sənayesi, humanitar, idman, birbaşa aviareyslər, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu qeyd edilib.

* * *

Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.

Söhbət zamanı Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirilib. Ötən il Baş nazir Robert Fitsonun ölkəmizə, hazırda isə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük töhfə verəcəyinə əminlik vurğulanıb.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilərək, digər istiqamətlər üzrə də əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu bildirilib.

Robert Fitso Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı regional sülhün təmin olunması istiqamətində Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğulayıb.

Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda Slovakiya şirkətinin layihələrdə iştirakı məmnunluqla qeyd olunub, ölkələrimizin arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına rəsmi səfəri dekabrın 9-da başa çatıb.

Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan-NATO əlaqələrinin inkişaf istiqamətləri müzakirə olunub



Dekabrın 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "16-cı NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan Alyansın Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının (SHAPE) Qərargah rəisinin müavini - Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Yusuf Karagüllenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqları salamlayan müdafiə naziri Azərbaycan ilə NATO arasında xüsusi əhəmiyyət daşıyan əlaqələrin hər iki tərəf üçün peşəkar hərbi kadrların inkişafına müsbət töhfə verdiyini bildirib.

General-polkovnik Z.Həsənov NATO-nun dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında rolunu yüksək qiymətləndirib, ölkəmizin Alyansla qarşılıqlı əməkdaşlığa daim önəm verdiyini, həmçinin Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Ortaq Qüvvələr Birliyinə əlavə qüvvələrin bəyan edildiyini diqqətə çatdırıb.

Kontr-admiral Y.Karagülle Azərbaycan-NATO əlaqələrinin daha da genişləndirilməsini, həmçinin ölkəmizin Alyansın həyata keçirdiyi təhlükəsizlik və sabitliyin təşviqi, böhrana cavab əməliyyatlarında iştirakını yüksək qiymətləndirib və qarşılıqlı səfərlərin, müxtəlif formatlarda keçirilən görüşlərin səmərəli olduğunu xüsusi vurğulayıb.

Bu günədək Azərbaycan Ordusunun NATO qərargahlarında Tərəfdaşlığın Qərargah Elementi Konsepsiyası çərçivəsində xidmət edən 40-dan çox zabitinin peşəkarlığı yüksək qiymətləndirilib.



Görüşdə ölkəmizlə Alyans arasında hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb, gələcək planlar müzakirə olunub.

"Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramı çərçivəsində Azərbaycan Ordusunun 250-dək nümayəndəsinin xarici ölkələrdə keçirilən 146 beynəlxalq tədbirdə, 395 nəfərin isə ölkəmizdə təşkil edilən 33 NATO tədbirində iştirak etdiyi bildirilib.

Qeyd edək ki, dekabrın 12-dək keçiriləcək "16-cı NATO günləri" çərçivəsində qonaqlar bir neçə hərbi hissəni və Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrini ziyarət edəcəklər.

# Heydər Əliyev adına Hərbi İnstitutda Beynəlxalq Elmi Konfrans keçirilib







DEEP proqramı çərçivəsində "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramının (DEEP) müdafiə və təhlükəsizlik sektorunda həyata keçirilən islahatlara töhfəsi" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib.

Konfrans NATO-nun DEEP proqramının dəstəyi ilə Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda keçirilib. Konfransda Bosniya və Herseqovina, Monqolustan, Gürcüstan, Ukrayna və Qazaxıstan kimi tərəfdaş ölkələrin nümayəndələri, NATO Əlaqələndirici Ofisinin təmsilçiləri, Türkiyə Milli Müdafiə Universitetinin nümayəndələri, Oklahoma Milli Qvardiyasının təmsilçiləri, Bolqarıstanın Hərbi Dəniz Qüvvələri Məktəbinin nümayəndələri ABŞ-ın Azərbaycandakı Hərbi Qrupunun nümayəndələri və NATO DEEP proqramının üzvləri iştirak ediblər.

Milli Müdafiə Universiteti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin institutun ərazisindəki abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Hərbi institutun klubunda keçirilən konfransın açılış nitqini söyləyən Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülov tədbir iştirakçılarını salamlayaraq 1994-cü ildə Ulu Öndər siyasi iradəsi ilə başladılan və Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandanın rəhbərliyində inkişaf etdirilən Azərbaycan-NATO münasibətlərindən danışıb, DEEP proqramı çərçivəsində əməkdaşlığımızın tarixinə toxunaraq son 26 il ərzində Azərbaycan Ordusunun hərbi təhsil sahəsində aparılan islahatlarından və DEEP-in bu islahatların həyata keçirilməsindəki rolundan bəhs edib. MMU rektoru, həmçinin Azərbaycan və NATO arasında hərbi təhsil sisteminin və DEEP çərçivəsində qurulan əməkdaşlıqların cari vəziyyəti ilə bağlı qonaqları məlumatlandırıb.

Konfransın davamında moderatorların da iştirakı ilə "Müasir hərbi təhsil proqramları", "Hərbi təbabət üzrə araşdırmalar", "Hərbi qabiliyyətlərin inkişaf etdirilməsi üçün ILIAS və e-portallardan istifadə", "Hərbi dil təlim-tədrisinin perekvizitləri, metodları və üsulları" və "Müasir hərbi fakültələrin formalaşdırılması və bacarıqlar" mövzularında görüşlər keçirilib.

Sonda beynəlxalq elmi konfransın yekununa dair təhlillər dinlənilib, qarşılıqlı fəaliyyət planının istiqamətləri barədə müzakirələr aparılıb.

# Azərbaycan-Türkiyə HHQ nümayəndələri arasında işçi görüşü keçirilib





Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri (HHQ) arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Bakıda Türkiyə nümayəndə heyəti ilə mövcud və gələcək əməkdaşlıq istiqamətlərinin müzakirəsinə həsr olunmuş işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüş zamanı HHQ sahəsində qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi, birgə təlim, təcrübə mübadiləsi, texniki və əməliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Qonaqlara müasir Azərbaycan Ordusunun formalaşması, həyata keçirilən islahatlar və HHQ-nin fəaliyyətindən bəhs edən brifinq təqdim olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər mühüm məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan XİN: Aİ-Ermənistan sənədi sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir

*Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir göstərir.*

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Avropa İttifaqı və Ermənistan arasında imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədinə dair şərhində bildirilib.

Qeyd edilib ki, Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişində bu iddiaların aradan qaldırılmasına dair müddəa nəzərə alındıqda, Aİ-Ermənistan sənədində həmin məsələyə toxunulması sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir və Ermənistan tərəfinin bəyan etdiyi niyyətilə bağlı ciddi suallar yaradır.

*Tarix yazan oğullar*

# Şəhid leytenant İbrahim Əliyevin anım günü qeyd olunub

Kəngərli rayonunun Qabıllı kəndində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış leytenant İbrahim Mustafa oğlu Əliyevin şəhadətinin 5-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Şəhidin müqəddəs məzarı önündə təşkil olunmuş tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhid valideynləri Vətən muharibəsi iştirakçıları, polis əməkdaşları, hərbi qulluqçular və kənd sakinləri iştirak ediblər. Anım tədbiri Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dini İcmanın sədri tərəfindən Qurani-Kərimdən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib. Tədbirdə Kəngərli rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edib. İcra başçısı öz çıxışına şəhid İbrahim Əliyevin keçdiyi şərəfli ömür yolunun xatırlanması ilə başlayıb, onun Vətənə, xalqa bağlılığını, misilsiz cəsarətini və igidliyi vurğulayıb. Başçı qeyd edib ki, İbrahim Əliyev kimi igid oğullarımız məhz Prezident, Müzəffər



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərin memarlarıdır. Şəhidlərimiz müqəddəs borclarını yerinə yetirib, Azərbaycanın ərazi bütövlüyünü bərpa ediblər. "Bu tarixi Qələbə, İbrahim Əliyev başda olmaqla bütün şəhidlərimizin qanı və canı bahasına, həmçinin döyüş iştirakçılarının fədakarlığı sayəsində əldə edilmişdir. Bu gün biz məhz onların sayəsində müstəqil və suveren ölkədə rahat və əmin-amanlıq içində yaşayırıq", - deyə rayon rəhbəri bildirib. Sonda Prezident İlham Əliyevin və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdiyi yüksək diqqət və hərtərəfli qayğını xüsusi olaraq nəzərə çatdırıb. Daha sonra anım tədbirində şəhid ataları, anaları və döyüş iştirakçıları çıxış edərək, İbrahim Əliyev haqqında xatirələrini bölüşüblər, Vətən uğrunda şəhid olmaq zirvəsinin şərəfindən bəhs ediblər. Məktəblilər şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş şeirlər söyləyiblər. Sonda tədbir iştirakçıları Qabıllı kəndindəki şəhidlərin məzarlarını ziyarət edərək, onların üzərinə tər qərənfillər düzüblər.



Əliyev İbrahim Mustafa oğlu 17 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Qabıllı kəndində doğulub. 2014-cü ildə Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyin, 2018-ci ildə Bakıda AAHM-in (indiki Heydər Əliyev adına Hərbi İnstitut) məzunu olub. Həmin ildən Goranboyda "N" hərbi hissəsində tağım komandiri kimi xidmətə başlayıb. İbrahimin işinə bağlılığı, sevgisi onu 2019-cu ilin noyabr və 2020-ci ilin mart ayları arasında Türkiyədə təhsil almağa qədər aparıb. O, Vətənə qayıtdıqdan sonra bölük komandiri vəzifəsində xidmətini davam etdirib. Xidmət illərində hərbi hissə rəhbərliyi tərəfindən təltif olunub. O, 3 bacının bir qardaşı, evin son beşiyi idi. Nişanlı idi. İlk gündən Vətən müharibəsinə yollanmış, döyüşə ilk başlayanlardan biri olmuşdu. Gülüstan dərəsi İncə çay istiqamətində düşmən postunu ələ keçiriblər. Sonradan snayperdən açılan atəş nəticəsində sentyabrın 29-da şəhadətə yüksəlib. Onun cənazəsi dekabrın 5-də ailəsinə təhvil verilib, dekabrın 7-də doğma kəndi Qabıllıda torpağa tapşırılıb. İbrahim 26 sentyabrda nişanlısı, dostu, qohumları və valideynləri ilə əlaqə saxlayıb. Nişanlısına yazdığı son mesajla vidalaşaraq, onu çox sevdiyini deyib. Dostu Fəxriyə isə ehtiyatlı və möhkəm olmağını tapşırıb. Aşağı Ağcakənddə yaşadığı evin sahibinə "qapıya bayraq asın!" - deyərək sanki şəhid olacağının xəbərini əvvəlcədən vermişdi. Atasından halallıq istəyib, bəlkə son danışıqları olacağını bildirib. Elə də olub. Atasına "mən zəng vurana qədər anamı mənə zəng vurmağa qoyma!" - deyib. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Ruhu şad olsun!

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi**



**(Əvvəli 1-ci səhifədə)**

*Sıra hazırlığı*

# Hərbi xidmət sıra hazırlığından başlanır

Sıra hazırlığının əsas məqsədi şəxsi heyətini Sıra nizamnaməsinə uyğun olaraq düzülməyə, sinxron hərəkət etməyə və komandaları dərhal, dəqiq yerinə yetirməyi öyrətməkdir. Bu prosesə nizami duruş və yeriş, yəni sırada vəzifələri bilmə, sıra və səfər addımları ilə hərəkətetmə bacarıqları daxildir. Həmçinin, yerində və hərəkətdə dönmələr, rəisə yaxınlaşma və hərbi salamlaşma kimi sıra fəndləri öyrədilir. Bölmələrin piyada və ya nəqliyyat vasitələrində nizamla hərəkət etməsi bacarığının inkişafı da sıra hazırlığının mühüm hissəsidir. Sıra hazırlığının əhəmiyyəti hərbi xidmətin gündəlik fəaliyyətindən döyüş şəraitinə qədər genişdir və şəxsi heyətin əmrlərə dərhal cavabvermə və qüsursuz icraetmə bacarığını artırır və onlarla əsgərin vahid orqanizm kimi birgə hərəkət etməsini təmin edir, bu da döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün şərait yaradır. Bundan əlavə, fiziki dözümlülüyü inkişaf etdirir və hərbi qulluqçulara özlərinə inam, səliqəlilik və təmkin aşılayır. Sıra hazırlığı hərbi qulluqçunun "əlifbası" hesab edilir və digər döyüş hazırlığı fənlərinin mənimsənilməsi üçün



möhkəm zəmin yaradır.

Müasir orduda intizam və düzgün hərəkət bacarığı döyüş qabiliyyətinin əsas tərkib hissələrindən sayılır. Sıra hazırlığı hər bir əsgərin xidmət zamanı intizamlı olmasını təmin edir, komandirlərin göstərişlərini dəqiqliklə yerinə yetirməyi öyrədir və kollektiv fəaliyyətin səmərəliliyini artırır. Sıra məşqləri, həmçinin şəxsi heyətin davranış vərdişlərinin formalaşmasına, məsuliyyət hissinin inkişafına və orduda vahid intizamın qorunmasına xidmət edir.

Azərbaycan Ordusunda sıra hazırlığı üzrə ciddi diqqət yetirilir. Təlim proqramları müxtəlif sıra hərəkətlərini əhatə edir, əsgərlərin komandirlərin əmrlərinə uyğunlaşmasını və birgə hərəkət bacarığını gücləndirir. Xidmət müddətində əsgər yalnız fiziki və taktiki tapşırıqları deyil, həm də intizamlı davranışı ilə nümunə göstərməli olur. Bu baxımdan sıra hazırlığı ordunun ümumi döyüş qabiliyyətinin qorunmasında mühüm rol oynayır.

"N" hərbi hissədə keçirilən sıra məşğələsi bu prosesin praktik nümunəsi oldu. Təlimə rəhbərlik edən çavuş Həsrət Zeynalov iştirakçıları salamlayaraq qeyd etdi ki, sıra hazırlığı əsgərlərin intizamını və komandirlərin göstərişlərinə riayətetmə vərdişlərini möhkəmləndirir. O, bildirdi ki, bu məşqlər həm də əsgərlərin kollektiv əməkdaşlıq bacarıqlarını inkişaf etdirir və xidmət zamanı düzgün davranış normalarının formalaşmasına kömək edir.

Məşğələ zamanı əsgərlər düzgün dayanmaq, komandir əmrlərini vaxtında yerinə yetirmək və kollektiv hərəkət etmək üzrə tapşırıqları icra etdilər. Çavuş Həsrət Zeynalov hər bir hərbi qulluqçuya fərdi diqqət göstərdi, səhvləri izah etdi və hərəkətlərin düzgün icrasına nəzarət etdi. Şəxsi heyətin səyləri və diqqəti məşğələnin səmərəli keçməsini təmin etdi.

Məşğələdə iştirak edən əsgərlər sıralarda intizamın vacibliyini vurğuladılar.

Əsgər Məmi Hacıyev dedi ki: "Sırada düzgün dayanmaq və komandir göstərişlərini vaxtında icra etmək xidmət zamanı əhəmiyyətli rol oynayır".

Əsgər Kamil Alıyev isə əlavə etdi ki, bu məşqlər kollektivdə harmoniya və qarşılıqlı hörmətin yaranmasına kömək edir.

Əsgərlər Kamal Niftalıyev və Hüseyn Rzaquluyev bildirdilər ki, sıra hazırlığı əsgərin diqqətini və məsuliyyət hissini artırır. Məşqlər nəticəsində hərbi qulluqçu həm şəxsi nümunəsini göstərir, həm də komandada uyğun fəaliyyət göstərməyi öyrənir.

Sonda qeyd etmək lazımdır ki, sıra hazırlığı Azərbaycan Ordusunda intizamın və nizamlı hərəkətin əsas vasitələrindən biridir. Bu təlimlər şəxsi heyətin davranış keyfiyyətlərinin yüksəldilməsinə, kollektiv fəaliyyətin səmərəliliyinin təmin edilməsinə və orduda vahid intizamın qorunmasına xidmət edir. Sıra hazırlığı nəticəsində formalaşan məsuliyyət əsgərlərin xidmətini daha effektiv və keyfiyyətli edir, ordunun qüdrətinə mühüm töhfə verir.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**

**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**

**3. XX əsrin əvvəllərində Azərbaycanın bolşevik Rusiyası tərəfindən ilhaqı ərəfəsində Azərbaycan dövlətçiliyi.**

**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

**Mövzu:** Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri.

### Qədim Azərbaycanda dövlətçilik ənənələri

XX yüzilliyin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış qədim insanın - Azıx adamının (Azıxantrop) çənə sümüyü bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir.

Azərbaycanlılar həm də dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Tarixi Azərbaycan torpaqlarında ilkin dövlətçilik ənənələri hələ miladdan əvvəl III minillikdə təşəkkül tapmışdır. Eramızdan əvvəl III minilliyin birinci yarısında yaranmış Aratta, eramızdan əvvəl III minilliyin ikinci yarısında mövcud olmuş Lullubum və Kutium dövlətləri erkən Azərbaycan dövlətləridir. Eramızdan əvvəl IX əsrdə müasir Cənubi Azərbaycan ərazisində Manna dövləti meydana gəldi. Adı ilk dəfə IX əsr mənbələrində çəkilən Midiyada Azərbaycan ərazisində mövcud dövlətlərdən olmuşdur.

Manna dövləti yalnız Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına - Aşşur və Urartu dövlətlərinə qarşı mübarizə aparırdı. Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar.

Sonrakı dövrlərdə nə Əhəməni imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilməyib. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəlib. III əsrdə Azərbaycanı Sasani imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə çoxsaylı irandilli və ərəb mənşəli əhali köçürdülər. Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi və Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bütün bölgələri arasında daxili əlaqələri və ticarət əlaqələri genişləndi. Azərbaycanın şimal və cənub, şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi.

### Orta əsrlər Azərbaycan dövlətləri haqqında

Xilafət dağıldıqdan sonra - IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. 600 ilə qədər davam edən sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin yaranması, İslam dininin bütün ölkə ərazisində yayılması Azərbaycanın sonrakı inkişafında mühüm rol oynadı. Lakin Ərəb xilafətinin tənəzzülündən sonra yaranmış dövlətlərdən heç biri uzun tarixi dövr ərzində Azərbaycanın bütün ərazisini əhatə edən vahid, davamlı, qüdrətli dövlətə çevrilə bilmədi və davamlı siyasi sabitlik təmin olunmadı. Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi. Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadılar. Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malikdir. Azərbaycan intibahı özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə ucaldı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. XV əsrin sonu - XVI əsrin əvvəllərində görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Dövlət dili Azərbaycan dili, paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan - Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi, mədəniyyəti daha da yüksəldi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi. Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı.

XVIII əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu, heç bir nəticə vermədi. Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli fürsət düşdü. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürüldü: Azərbaycanın şimalı çar Rusiyasına, cənubu isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

### XX əsrin əvvəllərində Azərbaycanın bolşevik Rusiyası tərəfindən ilhaqı ərəfəsində Azərbaycan dövlətçiliyi

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı. Ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü. Dövlət Bayrağı, Himni və Gerbi qəbul edildi, ana dili dövlət dili elan olundu və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl Azərbaycanda qadınlara seçki hüququ verildi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olduqca mürəkkəb tarixi şəraitdə - erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və özlərinə dövlət qurmaq üçün torpaq iddiaları irəli sürməsi şəraitində, Batumi danışıqları nəticəsində əldə edilmiş kompromis varianta əsasən İrəvanın paytaxt kimi Ermənistana verilməsi oldu. Bu böyük tarixi səhv Azərbaycan xalqının həyatında növbəti faciələrə və ermənilərin davamlı təsir dairəsinin genişləndirilməsinə yol açdı.

1918-ci il dekabrın 7-də açılışı olan Azərbaycan Parlamenti bütün Müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan idi. Cümhuriyyət parlamentinin ilyarımlıq fəaliyyəti dövründə qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. 1920-ci il aprelin 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən ilhaq edildi. Sovet hakimiyyəti dövründə Azərbaycan dövlətçiliyi çətin sınaqlar qarşısında qaldı. 1920-1922-ci illərdə Azərbaycanın artıq beynəlxalq birlik tərəfindən defakto tanınmış müstəqilliyi formal olaraq qismən qorunub saxlandı. 1922-ci ilin martında Cənubi Qafqazın üç respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) vahid dövlət - Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı (ZSSRFİ) çərçivəsində birləşdirildi və bununla da formal müstəqillik tam aradan qaldırıldı. Sovet İttifaqı dövründə Zəngəzur, Göyçə, Naxçıvanın bir hissəsi və digər rayonlar Azərbaycandan alınaraq Ermənistana birləşdirildi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kvadrat kilometrə bərabər olan ölkə ərazisi 86,6 min kvadrat kilometrə qədər azaldıldı. 1923-cü il iyulun 7-də isə bolşevik liderlərin təşəbbüsü ilə keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıldı. Bu qərar keçmiş "Dağlıq Qarabağ"ın Azərbaycan ərazisindən ayrılması istiqamətində atılmış ilk addım oldu.

Azərbaycanda sovet hakimiyyətinə qarşı müqavimət qəddarcasına, sürgünlərlə, repressiyalarla cavablandırıldı. 1937-ci il repressiyaları zamanı sovet hakimiyyəti ilə barışmayan Azərbaycan xalqının görkəmli ziyalılarının əksəriyyəti müxtəlif bəhanələrlə həbs edildi, Sibirə, Qazaxıstan çöllərinə sürgün edildi, bir çoxu güllələndi.

Azərbaycan xalqı İkinci Dünya müharibəsi illərində böyük fədakarlıq göstərdi, Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Bakı nefti faşizm üzərində qələbənin əldə olunmasında mühüm rol oynadı.

1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi Azərbaycanın qarşısında duran bir çox taleyüklü suallara aydın cavablar tapılması və onların ardıcıllıqla həll edilməsi baxımından tarixi hadisə oldu. 1970-1980-ci illərin əvvəllərində respublika iqtisadiyyatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən genişmiqyaslı tədbirlər, o cümlədən çoxsaylı sənaye müəssisələrinin, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması iqtisadi infrastrukturu köklü surətdə dəyişdirdi, onun aqrar respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırladı. Bütün məhrumiyyətlərə baxmayaraq, sovet hakimiyyəti illərində, xüsusilə 1969-1982-ci illərdə əldə olunmuş nəhəng potensial XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşmuş dövlətimiz üçün çox gərəkli oldu.

### Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinə qovuşarkən özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qalaraq Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzlərini bərpa etdi. Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, hakimiyyət uğrunda daxili çəkişmələr, iqtisadiyyatın çökməsi ölkəni xeyli zəiflətdi.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti sayəsində mümkün olub. Ulu Öndər müstəqil Azərbaycan dövlətinin tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi yenidən bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Ötən əsrin 90-cı illərində 5 minillik yaşı olan Azərbaycan dövləti parçalanmış vəziyyətdə olduğu vaxt, xalqın güclü idarəetmə qabiliyyətinə malik liderə ehtiyacı vardı. Ulu Öndər hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu və ölkədə dövlətçilik ənənələrini formalaşdırdı. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Çıxışlarının birində Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu uzun illərdən bəri Ermənistanın işğalına məruz qalmış əraziləri işğaldan azad etməsi, ərazi bütövlüyün təmin etməsi dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2025-ci il avqust ayının 8-də Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində Ermənistan və Azərbaycan Respublikası arasında sülh müqaviləsinin paraflanmasına dair bəyannamənin imzalanmasından sonra mətbuata verdiyi müsahibədə bildirmişdir: “Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib”.

Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir. Bu gün hər birimiz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## “Ehtiyat zabit hazırlığı kursu”na qəbul elan edilir




Milli Müdafiə Universiteti (MMU) cari ilin dekabr ayının 20-dək "Ehtiyat zabit hazırlığı kursu"na sənəd qəbulu elan edir.

"Ehtiyat zabit hazırlığı kursu"na ali təhsilli, müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının 35 yaşınadək kişi cinsli vətəndaşları müraciət edə bilərlər.

Kursa qəbul olmaq üçün müraciət etmiş namizədlər hərbi xidmətə yararlılıq dərəcəsinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir və Hərbi Həkim Komissiyasının qərarına əsasən zabitlərin həqiqi hərbi xidmətinə yararlı hesab edilmiş şəxslər müsabiqə mərhələsinə buraxılırlar.

Namizədlər müsabiqə mərhələsində fərdi-psixoloji və fiziki hazırlığı, ümumi bilik səviyyəsi və ixtisas uyğunluğu nəzərə alınmaqla kursa qəbul edilirlər.

mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Ehtiyat zabit hazırlığı kursu" hissəsində hərbi uçot ixtisaslarının ali təhsil ixtisaslarına uyğunluğu barədə ətraflı məlumat əldə etmək mümkündür.

Tələb olunan sənədlər:

- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- xarici dövlətlərdə təhsil almış namizədlərin ixtisaslarının Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən tam tanınmasına (akademik və peşə) dair sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (əgər varsa, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm və 1 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş, 1 nüsxədə);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**Qeyd**:

- müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Ehtiyat zabit hazırlığı kursu" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola bilərlər;
- məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Əlaqə məlumatları:**
**Telefon**: (012) 404-18-45
**Çağrı mərkəzi**: *0811
**E-poçt**: admission@mmu.edu.az
**Ünvan**: Bakı şəhəri, Qızıl Şərq 13. AZ1065

## Sağlam bədəndə sağlam ruh olar

# İdmançılarımızı tanıyaq







4 dekabr 2025-ci ildə Rusiyanın Kalininqrad şəhərində keçirilən boks üzrə "Kəhrəba əlcəklər 2025" beynəlxalq turnirində iştirak edən Ordu İdman Klubunun boksçuları Cəlal Qurbanov qızıl, Şəmsi Şahbazov isə gümüş medal qazanıblar.

İdmançılarımızı təbrik edir, onlara növbəti yarışlarda da uğurlar arzulayırıq!




5 dekabr 2025-ci il tarixində keçirilən cüdo üzrə "Qadınlar və kişilərin fərdi və komandalar arasında ölkə çempionatı"nda Ordu İdman Klubunun cüdoçusu əsgər Murad Əliyev bürünc medal qazanıb!

Əsgərimizi təbrik edir, uğurlarının davamını arzulayırıq!




Ordu İdman Klubunun boksçusu Novruzəli Quliyev 5 dekabr 2025-ci il tarixində Rusiyanın Yuqra şəhərində keçirilən boks üzrə "Neft Ölkələri Kuboku"nda iştirak edib. Bu yarışda idmançımız bürünc medal qazanıb.

Məşqçisi Bəhruz müəllimi, fiziki hazırlıq məşqçisi Emil müəllimi və idmançımızı təbrik edir, uğurlarının davamını arzulayırıq!




Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin II kursunda təhsil alan kursant İbrahimov Nihad Elçin oğlu Türkiyə Respublikasında Turan Alpaqut Döyüşü üzrə keçirilən Dünya Çempionatında 75 kiloqram çəki dərəcəsində daha inamla mübarizə aparıb və yüksək nəticə göstərərək 1-ci yerə layiq görülüb.

Kursantımızı təbrik edir, ona idman fəaliyyətində və təhsildə daha yüksək nəticələr əldə etməsini arzu edirik.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Britaniya dənizaltı təhlükəsizlik tədbirlərini açıqlayıb



Böyük Britaniya son aylarda Rusiyanın artan dənizaltı fəaliyyətini, o cümlədən ötən ay ölkə suları yaxınlığında müşahidə edilən "Yantar" casus gəmisi fonunda yeni müdafiə tədbirlərini açıqlayıb.

"Sky News" xəbər verir ki, admiral Qvin Cenkins "Atlantik Bastion" adlı proqramla bağlı yenilənmiş məlumat verib. Proqramın məqsədi Britaniyanın dənizaltı kabellərini və boru kəmərlərini potensial təhdidlərdən qorumaqdır. Layihə çərçivəsində avtonom sualtı cihazlar və süni intellekt texnologiyaları hərbi gəmilər və aviasiya ilə birləşdirilərək dənizaltı infrastruktura yönəlmiş mümkün təhdidlərin aşkarlanması və zərərsizləşdirilməsi nəzərdə tutulur.

Böyük Britaniyanın Müdafiə Nazirliyi bildirib ki, layihə Rusiyanın dənizaltı və sualtı fəaliyyətinin yenidən artmasına birbaşa cavab olaraq hazırlanıb. Bu il Müdafiə Nazirliyi və sənaye tərəfdaşları proqram üçün ümumilikdə 14 milyon funt sterlinq investisiya ayırıb və texnologiyanın gələn ildən istifadəyə veriləcəyi gözlənilir. Artıq Böyük Britaniya və Avropadan 26 şirkət layihə üzrə təkliflərini təqdim edib.

### Niderland Ukraynaya 700 milyon avro hərbi yardım ayıracaq



Niderland hökuməti yaxın vaxtlarda Ukraynaya əlavə hərbi yardım üçün 700 milyon avro ayırmaq niyyətindədir.

Bu barədə Niderlandın maliyyə, müdafiə və xarici işlər nazirlərinin səlahiyyətlərini icra edən İlko Haynen, Ruben Brekelmans və David van Vilan tərəfindən parlamentə göndərilən məktubda deyilir.

Həmin qərar parlamentin ən böyük müxalifət fraksiyası olan Yaşıl Sol və Əmək Partiyasının Kiyevə dəstək üçün 2026-cı ilədək əlavə 2 milyard avro ayrılmasını nəzərdə tutan planının həyata keçirilməsi istiqamətində atılan ilk addımdır.

Nazirlər Kabinetindən verilən məlumata görə, bu vəsaitin 500 milyon avrosu Müdafiə Nazirliyinin büdcəsindən, 200 milyon avrosu isə Xarici İşlər Nazirliyindən götürüləcək.

Hökumətin məlumatına görə, Niderland hər il Ukraynaya təxminən 3,5 milyard avro yardım edir.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Məcidov Bəhmən Ağamməd oğluna verilmiş MN № 0048472 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Gizir Süleymanov Güləli Telman oğluna verilmiş SQ № 0026266 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Kənan Cavanşir oğluna verilmiş MV № 134923 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qədirov Tural Məbud oğluna verilmiş MV № 161186 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həmidov Əziz Rəsul oğluna verilmiş MV № 155639 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əzməmmədov Röyal Elman oğluna verilmiş MV № 138892 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Əli ABIYEV

Lisenziya № 361
Sifariş № 821
Nüsxə 3665